# "Sehrli xalça" kolleksiyası Vyanada təqdim olunub










**Vyana şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Avstriyanın dünyaca məşhur zərgərlik brendi FREYWILLE-nin Qarabağ xalçalarına aid naxışlar əsasında yaratdığı "Sehrli xalça" kolleksiyasının yanvarın 29-da təqdimatı keçirilib.**

Milli Xalça Muzeyinin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, tədbiri Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova açaraq Azərbaycanın ən qədim xalq sənəti növü olan milli xalçaların Avstriyanın məşhur zərgərlik brendinin yeni kolleksiya üçün ilham mənbəyi olmasından məmnunluq ifadə edib.

Ölkəmizin Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli Azərbaycan və Avstriya qurumları arasında uğurlu əməkdaşlıq nəticəsində yaranan bu kolleksiyanın Azərbaycan mədəniyyətinin və xüsusilə Qarabağ xalçaçılıq ənənəsinin dünyada tanıdılmasına verdiyi töhfədən bəhs edib.

FREYWILLE şirkətinin rəhbəri Fridrix Ville Azərbaycan Milli Xalça Muzeyi ilə FREYWILLE zərgərlik evi arasındakı əməkdaşlığı yüksək dəyərləndirib.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova çıxış edərək bu unikal kolleksiyanın rəhbərlik etdiyi muzeylə FREYWILLE arasında imzalanan Anlaşma Memorandumuna əsasən hazırlandığını bildirib. O, ötən il dekabrın 5-də ilk dəfə Azərbaycan Milli Xalça Muzeyində kolleksiyanın təqdimatının yüksək səviyyədə baş tutduğunu diqqətə çatdırıb. Ə.Məlikova milli-mədəni irsimizə xüsusi rəğbət və sevgidən yaranan "Sehrli xalça" kolleksiyasının 6 aya yaxın müddətdə hazırlandığını bildirib.

FREYWILLE-nin peşəkar dizaynerlərindən Alice Tipse bu unikal muzeydə kəşf etdikləri nümunələrin zərgərlikdə növbəti sənət əsəri yaratmaq üçün möhtəşəm ilham qaynağı olduğunu diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində tanınmış pianoçu Abuzər Manafzadə və kamança ustası Ruhulla Əziz ifa ediblər. Daha sonra qonaqlar "Sehrli xalça" zərgərlik kolleksiyası ilə, həmçinin Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından olan vərni xalçaları ilə tanış olublar. Burada xüsusi stenddə vərni xalçasının naxışları əsasında hazırlanan muzeyin promo məhsulları da təqdim edilib. Sonda tədbir iştirakçıları arasında lotereya oyunu keçirilib və 3 qalib seçilərək onlara FREYWILLE tərəfindən hədiyyələr bağışlanıb.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 31 yanvar (№21).-